

**ABUTALIB SƏMƏDOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## PREZİDENT HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ORDUSUNUN YARADICISIDIR

Hakimiyyətdə olduqları qısa müddət ərzində nəinki heç bir problemi həll etməyən, üstəlik, əziyyətini xalqımızın uzun müddət çəkəcəyi ağır fəsadlar törədən AXC-Müsavat liderləri 1993-cü ilin yayı ərəfəsində tamamilə nüfuzdan düşmüş və xalqın böyük əksəriyyəti onlardan üz döndərmişdi. Əhalinin hakimiyyətə bəslədiyi nifrətdən istifadə edə bilən ən zəif müxalif qüvvə də asanlıqla belə vəziyyətdə iqtidar üçün böyük təhlükə mənbəyinə çevrilə bilərdi. Bu şəraitdə xalqın içərisində elə bir nüfuza malik olmasa da həm AMİP-in liderlik etdiyi siyasi müxalifət, həm də Surət Hüseynov - Rəhim Qazıyev cütlüyünün başçılığı altında birləşən və fərsiz hakimiyyətə açıq-aşkar meydan oxuyan hərbi müxalifət kifayət qədər problemlər yaradır və iqtidarı ciddi şəkildə narahat edirdi. Bu narahatlıqlara rəğmən AXC – Müsavat liderləri özlərinə əsas təhlükə, ən qorxulu rəqib xalqın içərisində böyük nüfuzu olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevi hesab edir və onu necə sıradan çıxarmaq barədə düşünürdülər. Baxmayaraq ki, böyük siyasətçi onların hakimiyyətinə nəinki müxalifət mövqeyində dayanmamışdı, əksinə, ən çətin məqamlarda dəfələrlə onlara kömək əlini də uzatmışdı.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən, 1992-ci ilin oktyabrında ona qarşı AXC tərəfindən hazırlanan dövlət çevrilişi cəhdinin qarşısını qətiyyətlə aldıqdan bir neçə ay sonra, 1993-cü ilin fevral-mart aylarında yenə Gəncə şəhərində başlayan və sürətlə dərinləşən hakimiyyət böhranı zamanı başını itirmiş iqtidarın xahişlərini nəzərə alıb, yalnız dahilərə məxsus ürək genişliyi ilə prezidenti müdafiə etmiş və hamını dövlət başçısı ətrafında birləşməyə çağırmışdı. Hərçənd ki, o dövrdə həm böyük siyasətçinin özü, həm də sadə vətəndaşlar dövlət başçısının kim olduğunu müəyyənləşdirməkdə çox böyük çətinlik çəkirdilər. Çünki, prezident seçkilərində «qalib gəlmiş» Əbülfəz Elçibəydən başqa, bəlkə də daha artıq həm parlamentin sədri İsa Qəmbər, həm də Baş Nazir Pənah Hüseynov özlərini prezident kimi aparır və həlledici əhəmiyyətə malik qərarları onlar verirdilər. Vəziyyətin ağırlaşmasının əsas səbəblərindən biri də o idi ki, özünü dövlət başçısı sayanların sayı bu üç nəfərlə məhdudlaşmırdı. O dövrdə özünü dövlət başçısı olmağa layiq hesab edən və məhz onun prezident kürsüsündə əyləşməməsini ən böyük «tarixi ədalətsizlik» sayan «dövlət xadimləri» yüzlərlə idi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev dövlət maraqlarını əsas götürərək, iqtidarın xahişlərini nəzərə alıb belə bir bəyanat verməyə razı olmuşdu. Hərçənd ki, böyük siyasətçiyə o da yaxşı məlum idi ki, bu bəyanat bir tərəfdən xalqın ümidlərinə və onun özünün nüfuzuna ciddi zərbə olacaq, digər tərəfdən bütün yaxşılıqlarına baxmayaraq, AXC – Müsavat iqtidarı öz «şakərindən» əl çəkməyəcək və onu məhv etmək üçün bundan sonra da yollar axtarmaqda davam edəcək. Bütün bunlara baxmayaraq, o, öz böyüklüyündən yenə də çəkilmədi və etdiyi yaxşılığın müqabilində dərin böhrandan çıxmaqda kömək göstərdiyi hakimiyyət onu məhv etmək üçün yeni plan hazırladı.

**Nəyin bahasına olursa-olsun hakimiyyətlərini saxlamaq naminə ölkədə demokratiyanın bütün olan - qalan izlərini yox etməyi qarşılarına məqsəd qoyan «demokrat» liderlərin hazırladıqları plana əsasən ilk növbədə özlərinin bəsləyərək yetişdirdikləri S.Hüseynov - R.Qazıyev cütlüyünün rəhbərlik etdiyi hərbi müxalifət məhv edilməli, sonra isə AMİP-in başçılıq etdiyi siyasi müxalifət və ən nəhayət, əsas hədəf - böyük H.Əliyev sıradan çıxarılmalı, bundan sonra ölkədə hərbi-polis recimi yaradılmalı idi. Yalnız bu şəraitdə fərsiz, naşı AXC-Müsavat iqtidarı xalqın böyük narazılığına baxmayaraq, hakimiyyəti əldə saxlaya bilərdi. Bir illik hakimiyyətləri dövründə hər cür kütləvi tədbirlər keçirilməsinə qadağa qoyan, mətbuatda senzura tətbiq edən, fövqəladə vəziyyət rejimi formalaşdırıb, onu qanunsuz olaraq 60 gün uzadan «Demokrat» bəylər yalnız heç bir müxalif fikrin və qüvvənin olmadığı şəraitdə öz kürsülərini qoruyacaqlarını güman edirdilər. Onlar əmin idilər ki, həm Gəncə şəhərindəki hərbi müxalifəti məhv etmək əməliyyatı, həm də sonrakı planlar uğurla başa çatacaq.**

İyunun ilk günlərində bu müdhiş planı reallaşdırmağa başlayan naşı hakimiyyət Gəncədə 709 №-li əlahiddə briqadanı və onun qeyri-rəsmi «sahibi» S.Hüseynovu məhv etməyə cəhd göstərdi. Bu məqsədlə hakimiyyətə sadiq olduğu güman edilən bütün silahlı qüvvələri cəlb etməklə, xüsusi əməliyyat planı hazırladı və qorxaqlığı, naşılığı, xəyanətkarlığı ucbatından ağır məğlubiyyətə uğrayaraq iflic vəziyyətinə düşdü. Əməliyyatın pozulmasından sonra AXC-Müsavat iqtidarının başını tamamilə itirərək buraxdığı kobud səhvlərdən istifadə edən qiyamçılar qısa müddətdə respublikanın əksər rayonlarını ələ keçirib, Bakı ətrafına gəlib çıxdılar. Vəziyyətin son dərəcə qorxulu olduğunu və həm dövlətçiliyin məhv olmaq, həm də özlərinin S.Hüseynovun dar ağacından asılmaq ərəfəsində olduqlarını görən (sonralar qiyamçı «milli qəhrəman» dəfələrlə bir-iki «bəyi» asmadığından keçirdiyi peşmançılığı etiraf edəcək) iqtidar nümayəndələri kömək üçün əsas düşmənlərinə - böyük siyasətçi H.Əliyevə müraciət etdilər. Onun arxasınca Naxçıvana xüsusi təyyarə göndərən AXC-Müsavat liderləri uzun müddət yalvardıqdan, dilə tutduqdan sonra, nəhayət, Bakıya gəlməsinə və ölkəni xilas etməyə razılıq verməsinə nail oldular.

Xalqın tələbi və AXC-Müsavat iqtidarının xahişləri ilə Bakıya gələn H.Əliyev 1993-cü ilin iyun,iyul və avqust aylarında xarici qüvvələrin köməyi ilə hakimiyyəti ələ keçirməyə çalışan qrupların qarşısını qətiyyətlə aldı. Böyük Xilaskarın atdığı müdrik addımlar sayəsində ölkəni vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas etmək mümkün oldu. Bununla belə, bir tərəfdən hakimiyyət uğrunda mübarizə aparan bəzi şəxslərin xəyanətkarlığından, digər tərəfdən Azərbaycanda yaranmış əlverişsiz vəziyyətdən,nizami ordunun olmamasından istifadə edən ermənilər və onların havadarları hücumları davam etdirərək daha bir neçə rayonu işğal etməyə nail oldular. Düşmən hərbi birləşmələrinin genişmiqyaslı hücumlarının davam etdiyi şəraitdə silahlı qüvvələrimizin nə qədər hazırlıqsız olduğu və ayrı-ayrı siyasi qüvvələrə xidmət etdiyi özünü daha bariz şəkildə nümayiş etdirdi.

Vəziyyət son dərəcə mürəkkəb və ağır idi.Tez bir zamanda ölkəni düşdüyü dərin böhrandan çıxarmaq,müxtəlif dövlətlərin Azərbaycana qarşı hazırladıqları təxribatların qarşısını almaq və ölkəni normal inkişaf məcrasına salmaq lazım idi.Erməni hərbi qüvvələrinin hücumlarının davam etdiyi şəraitdə bu məqsədlərə nail olmaq qeyri-mümkün idi.Ancaq başqa yol da yox idi. Nəyin bahasına olursa-olsun ölkə tez bir zamanda düşdüyü dərin böhrandan çıxarılmalı və əldə olunmuş müsbət nəticələr möhkəmlənməli idi.

Digər tərəfdən bir həqiqət də aydın idi ki,qısa müddətə qüdrətli Azərbaycan ordusu yaratmadan mənfur erməni planlarının qarşısının almaq mümkün olmayacaq. Bu planlar isə həqiqətən mənfur və Azərbaycanın məhvi ilə nəticələnə biləcək planlar idi. Söhbət Azərbaycan dövlətinin Dağlıq Qarabağ kimi mühüm əhəmiyyətə malik bölgəsinin itkisi ilə barışması üçün Kür çayına qədər olan əraziləri işğal etməkdən və danışıqlarda öz şərtlərini diqtə etməkdən gedirdi. Aydın idi ki, ərazisinin az qala yarısını itirmiş respublikanın təklif olunanlarla razılaşmaqdan başqa çarəsi qalmayacaqdı.

Erməni planlarını nəyin bahasına olursa-olsun, pozmaq üçün get-gedə güclənən düşmən hücumlarının qarşısı alınmalı və atəşkəs haqda saziş imzalandıqdan sonra ciddi şəkildə ordu quruculuğuna başlanılmalı idi. Ancaq atəşkəsə necə nail olmalı? Bir-birinin ardınca rayonları işğal edən ermənilərin hadisələrin onların xeyrinə inkişaf etdiyi şəraitdə belə bir saziş imzalamayacaqları aydın idi. Deməli,atəşkəs sazişinə ermənilərin razılaşması üçün Azərbaycan ordusu mütləq öz gücünü göstərməli və erməniləri sülhə məcbur etməli idi.Bəs, tam formalaşmamış və ayrı-ayrı qruplara xidmət edən ordunun gücünü necə nümayiş etdirməli?Vəziyyətin ağırlığı ilk növbədə bu amillə bağlı idi-atəşkəsə nail olmaq üçün güclü ordu,güclü ordu yaratmaq üçünsə mütləq atəşkəsə nail olmaq lazım idi.Hələ 1992-ci ildə hərbi mütəxəssislər,ilk növbədə prezident Ə.Elçibəyin hərbi müşaviri Yaşar paşa ordu yaratmaq üçün mütləq atəşkəsə nail olmağın zəruriliyini söyləyir,əks halda, ölkənin faciəli vəziyyətə düşəcəyini bildirirdi. Həmin dövrdə AXC iqtidarının qorxaqlığı və xəyanətkarlığı bu addımı atmağa imkan vermədi. Nəticə həqiqətən də son dərəcə fəlakətli oldu. Azərbaycanın yeni torpaqları işğal olundu,ərazimizin 20%-i ermənilərin nəzarəti altına keçdi, aparılan cinayətkar siyasət nəticəsində ölkə vətəndaş müharibəsi həddinə gəlib çıxdı. Böyük Xilaskarın Bakıya gəlməsindən sonra bir neçə ay ərzində vəziyyəti müəyyən qədər düzəltmək və ölkənin parçalanıb məhv olmasının qarşısını almaq mümkün olsa da, vəziyyət son dərəcə ağır olaraq qalmaqda idi.



Vaxt itirmək məhvə bərabər idi.

Bir tərəfdən təcili, döyüşlər gedə-gedə yeni ordu yaradılmalı,digər tərəfdən ölkəni iqtisadi böhrandan çıxarmaq üçün ciddi addımlar atılmalı idi. İqtisadi inkişafa nail olmaq üçün ilk növbədə əvvəlki iqtidarların bütün cəhdlərinə baxmayaraq, imzalaya bilmədikləri və son nəticədə onların istefasına gətirib çıxaran neft kontraktı imzalanmalı idi.Xalqın böyük dəstəyi ilə prezident seçilən Heydər Əliyevin qarşısında duran əsas vəzifə bu iki məqsədə nail olmaqdan,ölkə daxilində sabitlik yaratmaqdan,qanunsuz silahlı dəstələri ləğv etməkdən, ermənilərin yeni torpaqlar ələ keçirməsinə imkan verməməkdən ibarət idi.Həmin dövrdə məhvolma,parçalanma həddinə gətirilmiş Azərbaycanda bu məqsədlərə nail olmaq son dərəcə çətin,əksər mütəxəssislərin fikrincə isə qeyri-mümkün idi. Ciddi təhlillər əsasında bu nəticəyə gələn və əslində tamamilə haqlı olan mütəxəssislər bir şeyi nəzərə almamışdılar.1993-cü ilin sonlarında olduqca ağır və fəlakətli vəziyyətdə olan Azərbaycan dövlətinə dünyanın Ən böyük siyasətçisi Heydər Əliyev başçılıq edirdi.Və həmin günlərdə xalqın böyük siyasətçiyə olan sonsuz inamı və dəstəyi ən ağır vəziyyətdən çıxmağa,ən çətin,hətta qeyri-mümkün sayılan problemlərin öhdəsindən gəlməyə imkan verə bilərdi.Xalqının bu ilahi inamına,bu dəstəyinə güvənən H.Əliyev çətinliklə uçurum kənarında dayandırmağa nail olduğu Azərbaycanı böhrandan çıxarmaq üçün ağır döyüşə başladı.

İlk növbədə dövlətçiliyimiz üçün həlledici əhəmiyyətə malik olan yeni Azərbaycan ordusu yaradılmalı idi. Bu böyük məqsədə nail olmaq üçün prezident seçildikdən dərhal sonra H.Əliyev məqsədyönlü şəkildə mühüm əhəmiyyətə malik tədbirlər gördü. İlk addım olaraq 1993-cü il noyabrın 2-də televiziya və radio ilə birbaşa Azərbaycan xalqına müraciət edən Böyük Xilaskar «Xəyanətkarlar Azərbaycanı ordusuz qoyub, əgər ayağa qalxmasanız, əgər əli silah tutan hər kəs orduya gəlməsə, Vətənimiz məhv olacaq»-dedi. Müraciətində son günlər cəbhədə yaranmış ağır vəziyyət və ölkəni dərin böhrandan çıxarmaq üçün atılan addımlar barədə ətraflı məlumat verən Ali Baş Komandana bütün Azərbaycan diqqət kəsilmişdi. İnsanlar görürdülər ki, prezident Heydər Əliyev vətənini və xalqını AXC-Müsavat iqtidarının salmış olduğu faciəli vəziyyətdən qurtarmaq üçün hər şeyə hazırdır. Onlar anlayırdılar ki, qarşılarında cüzi təhlükədən qorxub öz canının hayına qalan,yalnız özünü düşünən «başçı» deyil, Azərbaycan naminə hər an şəhidliyə hazır olan böyük vətənpərvər dayanıb. Heydər Əliyevi çox böyük diqqət və həyəcanla dinləyən insanlar vaxt itirmədən cəbhəyə getməyə və azğınlaşmış düşməni yalın əllə məhv etməyə belə hazır idilər.

Çəkdiyi əzab-əziyyətlər üzündən oxunan,yorğunluğu,yuxusuzluğu açıq-aşkar hiss olunan Ali Baş Komandan müraciətinə davam edərək dedi: «**İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy özü könüllü surətdə getsin.**

**Azərbaycan böyük təhlükə altındadır. Lakin biz bu təhlükənin qarşısını ala bilərik və almalıyıq**».

Prezidentimizin bu çağırışı yeni ordu quruculuğunda həlledici məqam oldu. Noyabrın 3-dən başlayaraq minlərlə, on minlərlə insan könüllü olaraq hərbi komissarlıqlara gələrək döyüşə getmək arzularını bildirdilər. Hərbi hazırlıqları zəif olsa da, bu insanlarda böyük döyüş ruhu, qəhrəmanlıq var idi. Və bu döyüşkənliyin, mərdliyin hesabına Azərbaycan ordusu 1993-cü ilin sonunda erməni hücumlarının qarşısını almağa nail oldu, düşmənə sarsıdıcı zərbələr vurdu.

1994-cü ilin ilk günlərində əks hücuma keçən hərbi hissələrimiz çox mühüm qələbələr qazandılar. Yanvarın əvvəllərində Azərbaycan ordusunun əsgərləri düşmənin irimiqyaslı hücumlarının qarşısını alaraq, Füzuli rayonunun Aşağı Yağlıvənd, Kərimbəyli və Şükürbəyli kəndlərini azad edərək, Horadiz qəsəbəsinə nəzarəti öz əllərinə aldılar. Ordu bölmələrimiz Xocavənd və Kəlbəcər rayonları ərazisinin müəyyən hissələrinə də nəzarəti ələ keçirdilər.

Qazanılan qələbələr döyüşçülərimizdə ruh yüksəkliyi yaratsa da, qüvvələr nisbəti hələki bizim xeyrimizə deyildi. Bunu nəzərə alan ermənilər hücumlarını davam etdirir, müxtəlif istiqamətlərdən hərbi qüvvələrimizə zərbələr vururdular. Yaranmış vəziyyət ordu quruculuğunu sürətləndirməyi, yeni imkanlar axtarmağı tələb edirdi. Müxtəlif səbəblərdən,ilk növbədə AXC-Müsavat iqtidarının ölkədə yaratdığı anarxiya vəziyyətindən,başıpozuqluq mühitindən istifadə edərək öz konstitusion borcunu yerinə yetirməkdən imtina edən gənclər vətənin müdafiəsinə cəlb olunmalı idi. Bu məqsədlə yanvarın 2-də hərbi hissələri tərk etmiş və ya çağırışdan yayınmış gənclərin böyük bir qrupu, habelə onların valideyinləri və yaxın qohumları ilə görüşən prezident H.Əliyev onlara Azərbaycanın üzləşdiyi ağır vəziyyət barədə məlumat verdi və hamını vətəni müdafiə etməyə çağırdı. Bu çağırışdan sonra vaxtilə müxtəlif səbəblərdən orduya getməkdən imtina etmiş gəncləri səfərbər etmək mümkün oldu. Görüşdə ən vacib məqam ondan ibarət idi ki, hətta fərarilik etmiş gənclər də döyüşlərə, vətən, torpaq naminə ölümə belə getməyə hazır olduqlarını bəyan edirdilər. Bu isə onu göstərirdi ki, Azərbaycan 1993-cü ildə AXC-Müsavat iqtidarı tərəfindən salınmış olduğu dərin böhrandan çıxır, hərc-mərclik aradan qalxır, vətəndaşlar torpağı,vətəni qorumağa can atırlar.

Həmin görüşdən 10 gün sonra, yanvarın 13-də Azərbaycan prezidenti H.Əliyev cəbhəyə yola düşən zabitlərlə görüşdü. Onların qarşısında son dərəcə parlaq nitqlə çıxış edən Ali Baş Komandan ordumuzun döyüş ruhunu daha da yüksəltməyə nail oldu.



Yaradılmaqda olan Azərbaycan ordusunun erməni və rus birləşmələrinə qəhrəmancasına müqavimət göstərir və düşmən qüvvələri hər gün onlarla,yüzlərlə canlı qüvvə və hərbi texnika itirirdi.Buna baxmayaraq, təcrübəli rus hərbçiləri tərəfindən istiqamətləndirilən və təlimatlandırılan ermənilər Azərbaycanda böhranın nəticələrinin tamamilə aradan qalxmamasından,ordumuzun tam formalaşmamasından istifadə edərək hücumları dayandırmır və yeni ərazilər işğal etməyə çalışırdılar.Lakin artıq hakimiyyət sükanı arxasında fərsiz və qorxaq AXC-Müsavat iqtidarı deyil,böyük Heydər Əliyev dayanmışdı. Azərbaycan xalqı və onun gənc ordusu öz böyük liderinə güvənərək düşmənə mərdliklə müqavimət göstərirdi.Döyüşlərdə günbəgün böyük itkilər verən ermənilər yeni torpaqlar ələ keçirməyə olan ümidlərini itirir, əvvəlki iqtidar dövründə müqavimətsiz torpaqlarımızı tutmağa öyrənmiş işğalçılar Azərbaycan əsgərinin döyüş ruhunu,qəhrəmanlığını görüb qorxuya düşürdü.Lakin xaricdəki havadarları onları inandırırdılar ki,bir az da hücumlar gücləndirilsə, Azərbaycan ordusunda yenə panika başlayacaq.Bu məqamdan istifadə edib yeni ərazilər işğal edib, münaqişənin taleyini həll etmək mümkün olacaq. Onu da qeyd etmək lazımdır ki,ermənilər xaricdən təkcə mənəvi dəstək almırdılar.Həmin dövrdə onlara təkcə Rusiya tərəfindən pulsuz olaraq verilən hərbi texnikanın dəyəri yüz milyonlarla dollar idi. Bütün bunlara baxmayaraq həm Ermənistanda,həm də Rusiyada çoxları dərk edirdi ki, Azərbaycan əsgərinin mərdliyi,döyüşkənliyi,öz Ali Baş Komandanına olan sonsuz inamı şəraitində hücumların davam etdirilməsi heç bir nəticə verməyəcək

Xaricdəki havadarlarına güvənən və yeni torpaqlar ələ keçirməyə ümid edərək müxtəlif bəhanələrlə atəşkəs sazişi imzalamaqdan imtina edən ermənilər problemin siyasi, diplomatik vasitələrlə həllinə mane olurdular. Çox gərgin, ağır döyüşlərlə, hər iki tərəfdən çoxsaylı itkilərlə müşaiyət olunan bu hücumlar mart ayının sonlarına qədər davam etdi.

Çox böyük qürur hissi ilə qeyd olunmalıdır ki, Azərbaycan ordusunun hissələri, hərbi bölmələrimiz, döyüşçülərimiz bütün bu hücumların qarşısını qəhrəmanlıqla alaraq, erməni ordusuna ağır zərbələr vururdular. Nəticədə, hücuma keçən düşmən qüvvələri böyük itkilər verir, xeyli canlı qüvvə tələfatı ilə üzləşirdi. Ermənilərin ən çox itki verdiyi istiqamət Füzuli rayonu idi. Bu istiqamətdə yeni ərazilər ələ keçirməyə çalışan erməni hərbi qüvvələri əsgərlərimizin qəhrəman müqaviməti ilə üzləşərək, heç nəyə nail olmadan geri çəkilməyə məcbur olmuşdular.

Ermənilərin mart ayında başladıqları hücumların qarşısı alındıqdan sonra cəbhə xəttində sakitlik yarandı. Aydın idi ki, çox böyük itki ilə üzləşən ermənilər qüvvələrini səfərbər edərək yeni kampaniyaya hazırlaşırlar. Yaranmış fasilədən istifadə edən Azərbaycan rəhbərliyi ordunu gücləndirmək üçün zəruri tədbirlər gördü. Əsgərlərin döyüş ruhunu yüksəltmək üçün Azərbaycan prezidenti, Ali Baş komandan H.Əliyev aprel ayının 9 və 10-da cəbhə bölgələrinə səfər etdi. Hərbi hissələrdə əsgər və zabitlərlə görüşən dövlət başçısı artıq tamamilə yeni or-

dunun yaranmaqda olduğunun şahidi oldu. Bu onun 1993-cü ilin iyul-avqust aylarında gördüyü əsgərlər deyildi. Bu gün onun qarşısında yüksək nizam-intizama malik, hazırlıqlı,döyüşə can atan Azərbaycan əsgəri dayanmışdı.

Ali Baş Komandanın döyüş bölgələrinə səfəri sonrakı günlərdə erməni hücumlarının qarşısının alınmasında mühüm rol oynadı. O da aydın oldu ki, böyük siyasətçi səfər üçün olduqca düzgün vaxt seçib və bu görüşlər iki gün sonra başlayacaq erməni hücumlarının qarşısına özünə güvənən və vətən torpağı naminə hər şeyə hazır olan Azərbaycan əsgərinin çıxması ilə nəticələnməsində böyük rol oynadı.Döyüşlərdə ermənilərin verdikləri çoxsaylı itkilər həm Ermənistandan orduya çağırılmış şəxslər və onların yaxınlarında, həm də bütövlükdə Ermənistan cəmiyyətində narazılığın, etirazların artmasına səbəb olurdu. Baş verən proseslərin təhlili göstərirdi ki, yeni Azərbaycan torpaqlarının işğalı son dərəcə çətinləşib və belə davam edərsə bir azdan təşəbbüs günbəgün möhkəmlənən, qüdrətlənən Azərbaycan ordusunun tərəfinə keçəcək. Ona görə də necə olursa-olsun, 1994-cü ilin aprel kampaniyası zamanı yeni Azərbaycan əraziləri işğal olunmalı və aparılan danışıqlarda ermənilər üçün maksimum əlverişli şərait yaradılmalı idi.

Bu səbəbdən erməni hərbi birləşmələri havadarlarının köməyi ilə necə olursa-olsun əsas məqsədlərinə – Kür çayına qədərki Azərbaycan ərazisini işğal etməyə çalışırdılar. Cəbhə bölgələrində olduqca ağır, qanlı döyüşlər gedirdi. Azərbaycan ordusunun əsgərləri son damla qanlarına qədər hər qarış vətən torpağı uğrunda döyüşürdülər. Ağır itki verərək geri çəkilmək məcburiyyətində qalan ermənilər qüvvələrini səfərbər edərək yenidən hücuma keçirdilər. Döyüşlər hərbi əməliyyatların üçücü günü – aprelin 12-də xüsusilə qanlı xarakter aldı. Vəziyyət olduqca ağır və təhlükəli idi. Bunu nəzərə alan Azərbaycan prezidenti, Ali Baş Komandan H.Əliyev həmin gün televiziya və radio ilə xalqa müraciət etdi və bu müraciət hücumların qarşısının alınmasında son dərəcə mühüm rol oynadı.

Döyüş əməliyyatlarının gedişində fəal diplomatik iş aparan və müharibəni dayandırmaq üçün həm MDB-nin,həm də Rusiya kimi nəhəng dövlətin imkanlarından istifadə edən böyük siyasətçi yaxşı bilirdi ki, Varşava müqaviləsi təşkilatı dağıldıqdan sonra dünyada yeganə güc mərkəzinə çevrilən NATO-nu bu prosesə qoşmadan müharibəni dayandırmaq və Ermənistan-Azərbaycan münaqişəsini dövlətimizin mənafeyinə uyğun həll etmək mümkün olmayacaq. Üstəlik dünyada gedən proseslər onu göstərirdi ki, şərqə doğru genişlənməkdə olan NATO-nun nüfuzu yaxın gələcəkdə daha da artacaq və bu alyans ən mühüm məsələlərdə həlledici söz sahibi olacaq. Buna görə də nə qədər təhlükəli olsa da, H.Əliyev NATO ilə daha sıx əməkdaşlığın zəruriliyini uzaqgörənliklə dəyərləndirdi və «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaq barədə olduqca cəsarətli qərar qəbul etdi. 1994-cü ilin yazında, hərbi əməliyyatların çox şiddətli şəkil aldığı və bu əməliyyatlarda Rus hərbi qüvvələrinin yaxından iştirakının heç kimdə şübhə doğurmadığı bir məqamda belə qərar vermək son dərəcə ağır nəticələrə gətirib çıxara bilərdi.



Çünki Rusiya NATO-nun onun sərhədlərinə yaxınlaşmasına qısqanclıqla, narahatçılıqla yanaşır və Şimal alyansına yaxınlaşmaq cəhdlərində bulunan keçmiş sovet respublikasını cəzalandırmağa və son nəticədə bu fikirlərdən çəkindirməyə çalışırdı. Bax bu cür mürəkkəb şəraitdə çox böyük müdriklik və cəsarət nümayiş etdirən Azərbaycan prezidenti Brüsselə, NATO-nun iqamətgahına getmək və «Sülh naminə tərəfdaşlıq» proqramına imza atmaq barədə qərar qəbul etdi.

1994-cü il mayın 4-də Brüsselə gələn Azərbaycan prezidenti Heydər Əliyev NATO-nun Brüsseldəki baş iqamətgahında dövlətimizin və ilk növbədə ordumuzun güclənməsində böyük rol oynayacaq çərçivə sənədinə qol çəkdi.Bu cəsarətli və mühüm addımdan sonra daha bir son dərəcə əhəmiyyətli qərar qəbul edildi. Bu cəbhədə atəşin dayandırılması barədə imzalanan Bişkek protokolu idi. Bişkek protokolunun imzalanmasından iki gün sonra, mayın 12-dən etibarən cəbhədə atəşkəs elan olundu.

Sonrakı hadisələr göstərdi ki, Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması və Bişkek sazişini imzalaması son dərəcə mühüm addımlar idi və bu müdrik,cəsarətli addımlar Ermənistan – Azərbaycan münaqişəsində təşəbbüsü ələ almağa, ordunu gücləndirməyə, iqtisadi islahatları sürətləndirməyə, mühüm əhəmiyyətli kontraktları imzalamağa imkan verdi.

Bu gün Azərbaycan ordusu Cənubi Qafqaz regionunun ən güclü,ən intizamlı və yüksək dünya standartları səviyyəsində təchiz olunmuş nəhəng hərbi qüvvəsidir. Ordumuzun gücü barəsində söylənilən böhtanlara dözməyən qəhrəman azərbaycan əsgəri Ali Baş Komandanın əmrinə müntəzir dayanıb və hərbi əməliyyatların başlayacağı təqdirdə işğalçını qısa müddətdə məhv etmək gücündə və əzmindədir. Ordumuzdakı yüksək döyüş ruhunu və hərbçilərimizin gücünü hamıdan yaxşı bilən prezident H.Əliyev Naxçıvanda səfərdə olarkən demişdir: «Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri onun milli ordusunun yaranması, təşkil olunması və müasir tələblərə uyğun hazırlanmasıdır. Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki,tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü Milli ordu yaranıbdır».

Möhtərəm prezidentimizin ordumuzun bu günkü yüksək səviyyəsi ilə bağlı qürur hissi keçirməsi təbiidir.Çünki milli ordumuzun bu səviyyəyə qalxması ilk növbədə onun-Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının titanik zəhməti hesabına mümkün olub.Onun müdrik rəhbərliyi altında sıravi əsgərdən tutmuş müdafiə naziri general-polkovnik Səfər Əbiyevə qədər hər kəs ordumuzun güclənməsi üçün əlindən gələni edib.Sevindirici haldır ki, hər cür özünütəbliğdən qaçaraq, öz işini ləyaqətlə yerinə yetirməyə çalışan müdafiə nazirinin fəaliyyətinə möhtərəm prezidentimiz bir neçə dəfə yüksək qiymət verib. Son yüz ilin ən böyük dövlət xadiminin yüksək qiymətinə layiq olmaq, onu qazanmaq isə son dərəcə çətindir. Ordumuzun son illərdə keçdiyi möhtəşəm inkişaf yoluna obyektiv qiymət verən hər kəs bu işdə müdafiə naziri General-polkovnik Səfər

Əbiyevin göstərdiyi fədakarlığı, sədaqəti qeyd etməklə, ordu quruculuğunun ilk günlərindən başlayaraq, bu müqəddəs işdə onun xüsusi rol oynadığını və Ali Baş Komandana ən etibarlı köməkçi olduğunu etiraf edir.

Hamımızı sevindirən məqamlardan biri və ən mühümü ondan ibarətdir ki,bu gün Azərbaycan ordusunun daha da güclənməsi üçün bütün xalq səfərbər olunub. Azərbaycan prezidentinin fərmanı ilə yaradılmış xüsusi fonda hamı əlindən gələn yardımı etməyə və bununla qəhrəman ordumuza,Azərbaycan əsgərinə olan böyük inam və məhəbbətini ifadə etməyə çalışır.Bu müqəddəs işdən yalnız hakimiyyəti ələ keçirməkdən başqa heç nəyi düşünməyən dağıdıcı müxalifət kənarda qalıb və ordumuza yardım etmək istəmir. Etməsinlər. Onsuz da ordumuzun günbəgün qüdrətlənməsinin qarşısını nə erməni işğalçıları,nə də ordumuza qarşı müxtəlif təxribatlar törədən Azərbaycandakı erməni havadarları ala bilməyəcəklər.Bu gün hamımızın güvəndiyimiz və qürur duyduğumuz Azərbaycan ordusu yaxın zamanda daha möhtəşəm,daha güclü olacaq.Və Böyük Xilaskar Heydər Əliyevin rəhbərliyi altında formalaşmış Azərbaycan ordusunun yaradılmağa başladığı gün-**2 noyabr 1993-cü il** tariximizin ən şərəfli və müqəddəs günü kimi yaddaşlarda əbədi yaşayacaq.